# TN-FASAD SİSTEMİ Standart

Dekorativ kərpiclə üzlənmiş qat-qat hörgülü fasad sistemi




## Sistemin təsviri:

Kərpic üzlük fasada klassik görünüş bəxş edir, lakin konstruksiya ventilyasiya olunur, bu da kondensatın isidicidə toplanmasına yol vermir.
Çoxmərtəbəli inşaatda sistem mərtəbələrarası örtüyə söykənir. Monolit işlərdə bütöv soyuqluq körpüsünün yaranmasının qarşısını almaq üçün örtüklər TEXNONİKOL CARBON PROF ekstruziya penopolistirolundan hazırlanmış termoiçliklər qoyulur. Azmərtəbəli inşaatda (9 m hündürlüyə qədər) sistemi binanın daşıyıcı elementi kimi quraşdırmaq olar. Bu halda örtük divarın daxili hissəsinə söykənir, xarici hörgü fasiləsiz şəkildə binanın hündürlüyü boyunca aparılır, termoiçlik sisteminə isə ehtiyac qalmır.  Bu sistemin istilik izolyasiyası yaxşı buxarkeçiriciliyə və sərtliyə malik olmalıdır. Bu tələbə TEXNOBLOK* istilik izolyasiya plitələri cavab verir.  Xarici hörgünün uçmasının qarşısını almaq üçün onu bazalt-plastikdən hazırlanmış elastik bağlarla daxili hörgüyə birləşdirirlər. Bu element əlavə olaraq isidicini layihə vəziyyətində saxlayır. Sistemin xidmət müddəti 50 ildən çoxdur.

## Tətbiq olunma sahəsi:

TN-FASAD Standart fasad sistemi yaşayış və ya inzibati məişət təyinatlı monolit karkas binalarda özüdaşıyıcı çəpərləyici konstruksiya kimi istifadə olunur. Azmərtəbəli inşaatda daşıyıcı çəpərləyici konstruksiya kimi istifadə olunur.

## Sistemin tərkibi:

| Nömrə | Qatın adı | Texniki vərəqənin nömrəsi | Ölçü vahidi | Ölçü, qablaşdırma | Sərfiyyat m$^2$ |
|---|---|---|---|---|---|
| 1 | Divarların daşıyıcı/özüdaşıyıcı hissəsi | - | - | - | - |
| 2 | «Termoiçliklər» sistemi ilə daşəyəcə arakəsmə | - | - | - | - |
| 3* | Texnonikol Carbon Prof ekstruzialı penopolistirol, STO 72746455-3.3.1-2012 | 4.09 | - | - | Lahiyəyə uyğun |
| 4 | Hidroizolasiya qatı – BİKROELAST TPP, STO 72746455-3.1.13-2015 | 1.27 | - | rulon, 15 x 1 m | Lahiyəyə uyğun |
| 5** | TEXNOBLOK STANDART daç yunu plitələri, TU 5762-010-74182181-2012 | 3.03 | m$^2$ | 1200x600x40-200 mm ölçülü plitələr, 10 mm addim ilə | 1,02 |
| 6 | Üzlük kərpic | - | ədəd | - | Lahiyəyə uyğun |
| 7 | Elastik bazalt-plastik fiksatorlu bağlamalar | - | ədəd | - | 4 |
| 8 | Şaquli tikişlər | - | - | - | - |

* Alnernativ material: TEXNONİKOL CARBON ECO ekstruzialı penopolistirol.
** Alternativ material: TEXNOVENT daş yunu plitələr.

## İşlərin həyata keçirilməsi:

STO 72746455-4.4.1-2016 «Binaların xarici izolyasiyası üçün fasad sistemləri. Texniki təsvir Layihə, materiallar, məhsul və quruluşa tələblər».